# DÖVLƏT MƏŞĞULLUQ XİDMƏTLƏRİ ÜÇÜN
## strategiyalar və çağırışlar

Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyası

# Giriş

WAPES öz üzvləri arasında narahatlıqları, problemləri və cari il üçün strategiyaları haqqında məlumat toplamaq üçün sorğu keçirib. Bu sorğuda dünyanın müxtəlif regionlarından 38 Məşğulluq Xidməti iştirak edib və onların hər biri həyata keçirilən dəyişikliklər və perspektiv haqqında geniş məlumat təqdim edib.

Bu sorğuya verilən cavablar bütün ölkələrdə əmək bazarında əhəmiyyətli və davamlı dəyişikliklərin sürətləndiyinə inamımızı təsdiqləyir. Məşğulluq Xidmətlərinin əksəriyyəti artıq sorğuda qeyd olunan çağırışlara cavab vermək üçün fəal tədbirlər görür.

Bu araşdırma müxtəlif regionlardan və kontekstlərdən müxtəlif təcrübə və fəaliyyətlər toplusunu təqdim edir.

# Metodologiya

Sorğu anketi iştirakçıların öz vəziyyətlərini daha aydın təsvir etmələri üçün açıq cavablara əsasən hazırlanmışdır.

Bu şəkildə toplanmış ifadələr iki paralel şəkildə işlənir:
1. Cavablar açar sözlər sistemindən istifadə etməklə müxtəlif tematik kateqoriyalara bölünür ki, biz təkrarların statistik və qrafik şəklini yarada bilək və hər şeydən əvvəl onları əvvəlki ilin məlumatları ilə müqayisə edək.

2. Məşğulluq Xidmətlərinin hər biri üçün tendensiyaları, yenilikləri və nəzərə çarpan xüsusiyyətləri müəyyən etmək üçün nəticələr keyfiyyət baxımından təhlil edilir.
Məqsəd ikitərəflidir: Məşğulluq Xidmətlərinin 2023-cü il üçün öhdəlik götürdüyü strategiya və məsələlərin real icmalını yaratmaq və 2022-ci ildə toplanmış məlumatların fonunda onların inkişafını müşahidə etmək.

Sorğu iştirakçılarının istinad nümunəsi (38 Məşğulluq Xidməti) keçən ilki ilə demək olar ki, eyni olduğundan hesab edə bilərik ki, 2022-ci ilin nəticələri ilə bağlı 2023-cü il sorğusunun aşkar etdiyi tendensiyaların təhlili əhəmiyyətli ola bilər.

# Metodologiya

| WAPES regionları | İştirakçıların sayı |
| --- | --- |
| Afrika | 8 |
| Amerika | 4 |
| Asiya | 3 |
| Avropa | 19 |
| MOPA | 3 |
| Ümumi | 38 |

Sorğuda iştirak edən Məşğulluq Xidmətlərinin regionlar üzrə bölgüsü

*MOPA- Əlcəzair, Mərakeş, Tunis

Əvvəlki illərdə olduğu kimi, müxtəlif regionların cavablarda təmsil olunması həmişə təhlilin regionlar üzrə bölünməsinə imkan vermir.

Bu sorğunu cavablandırmaq üçün vaxt ayıran, cari il və gələcək üçün uğurlarını, prioritetlərini və qayğılarını bölüşmək imkanı verən məşğulluq xidmətlərinə təşəkkür edirik.

## 2022-ci ildə əldə olunan nailiyyətlər

Məşğulluq Xidməti olaraq əldə olunan ən mühüm 5 uğur, nailiyyət və ya irəliləyişlər

Məlumat 2021-ci il ilə müqayisəli şəkildə təqdim olunub




WAPES World Association of Public Employment Services

# Kənar təsirlərə uyğun davranmaq

## Məşğulluq Xidməti olaraq əsas prioritetlər




WAPES
World Association of Public Employment Services

# Kənar təsirlərə uyğun davranmaq

## Əmək bazarında fəaliyyətlər




WAPES World Association of Public Employment Services

# Kənar təsirlərə uyğun davranmaq

## Aktiv siyasətlərin hazırlanması

Məşğulluq xidmətləri respondentlərinin 68%-i (37 nəfərdən 25-i) 2023-cü il üçün hədəf olaraq inklüziv əmək bazarının inkişafına yönəlmiş tədbirlər və proqramların həyata keçirilməsini qoyub.

## İşçi çatışmazlığı ilə mübarizə

Sorğu iştiraçılarının 24%-nin istinad etdiyi ikinci ən əsas məqam işçi qüvvəsi çatışmazlığı ilə mübarizə strategiyalarına aiddir. COVİD-dən sonrakı iqtisadi dirçəlişin təsiri, iş və insanların istəkləri arasındakı əlaqədə böyük dəyişikliklərlə birlikdə, bir çox sektorlarda işə qəbulla bağlı çətinliklərə böyük təsir göstərir. Bu bəzi sahələrdə yeni bacarıqların yaranması üçün zərurət yaratsa da bəzi işçilər üçün daha yaxşı əməkhaqqı ilə işləmək, daha yaxşı iş mühitində çalışmaq və iş-həyat balansını formalaşdırmaq üçün təkan olub.

## Kənar təsirlərə uyğun davranmaq

### Ayrı-seçkiliklə mübarizə

Mali, Türkiyə, Azərbaycan, Moldova Respublikası, Albaniya və İsveç üçün prioritet təlimatlarına həssas qrupların, xüsusilə NEET-lərin*, həmçinin gənclər və qadınlar kimi ayrı-seçkiliyə məruz qalan qrupların inteqrasiyası və/və ya reinteqrasiyasına dəstək öhdəlikləri daxildir. Məşğulluq Xidməti əmək bazarına və ya gəlir gətirən fəaliyyətlərə çıxışda bərabərsizliyi azaltmağa kömək edir.

### İnformasiya sistemlərinin etibarlılığını inkişaf etdirməyə və təkmilləşdirməyə davam etmək

Bu gün və gələcəkdə daha yaşıl iqtisadiyyata keçid, rəqəmsal transformasiya və demoqrafik dəyişikliklərlə bağlı Məşğulluq Xidmətlərinin üzləşdiyi əsas problemlər istifadəçiləri və qərar qəbul edənləri məlumatlandırmaq üçün müvafiq məlumatları toplamaq, təhlil etmək və yaymaq, həmçinin cavab tədbirləri hazırlamaq tələb edir. Məsələn, Koreya Respublikasının Məşğulluq Xidməti özəl sektorlarla ictimai məlumatları bölüşür.

***NEET- heç bir təhsil, təlimi və məşğulluğu olmayan şəxs**

## Kənar təsirlərə uyğun davranmaq

### İşgüzar əlaqələr və imkanlar

Bir çox ölkələrin iqtisadiyyatın bir sıra sektorlarında işə qəbulla bağlı artan çətinliklərlə üzləşdiyi bir vaxtda Məşğulluq Xidmətləri öz fəaliyyətlərini gücləndirir, eyni zamanda işəgötürənlərin tələblərini daha yaxşı başa düşmək və inkişaf etdirmək üçün şirkətlərə yanaşmalarını nəzərdən keçirir (VDAB Belçika, NEA Moldova, IEFP Portuqaliya).

### Siyasi böhran və hərbi münaqişələr

Təəssüf ki, 2023-cü il hələ də həm əmək bazarlarına (iqtisadi sanksiyaların təsiri), həm də insanların (qaçqınlar, miqrantlar və s.) fəaliyyətinə böyük təsir göstərən çoxsaylı siyasi gərginliklər və silahlı münaqişələrlə yadda qalan il oldu.

Afrika, Cənubi Amerika, Asiya və Avropada sosial və siyasi gərginlik zamanı (müharibə, inflyasiya, müəyyən ərzaq ehtiyatlarının qıtlığı, iqlim dəyişikliyinin təsiri, ictimai sağlamlıq problemləri və s.) təsirə məruz qalan əhaliyə qısamüddətli cavab tədbirləri və dəstək vermək üçün Məşğulluq Xidmətləri çağırılır və səfərbər olunur.

## Xidmət təklifinin hazırlanması və uyğunlaşdırılması




WAPES World Association of Public Employment Services

# Xidmət təklifinin hazırlanması və uyğunlaşdırılması

## Bacarıqlar və məşğulluq

Cavabların 43%-i göstərir ki, təklif olunan xidmətlər bütün əmək qabiliyyətli əhalinin məşğulluğunu dəstəkləmək üçün təlim, peşəkar inteqrasiya siyasətləri və mexanizmlərini səfərbər etmək yolu ilə işləyən insanların bacarıqlarını inkişaf etdirməyə yönəlib. Bu məqam artıq Məşğulluq Xidməti tərəfdaşlıqlarının (universitetlər, məktəblər, peşə sektorları və s.) sayının artması deməkdir. Məsələn, Kambocadakı Məşğulluq Xidməti Bacarıqların İnkişafı Proqramının bir hissəsi olaraq Swisscontact-ın dəstəyi ilə yeni karyera bələdçiliyi və idarəetmə təlimatı hazırlayır.

Kanadada Məşğulluq və Sosial İnkişaf - İş Bankı, bacarıq səviyyəsindən asılı olmayaraq, bütün kanadalılara daha yaxşı inkişaf, məşğulluq əldə etmək, iş yerinə uyğunlaşmaq, uğur qazanmaq və əməyin davamlılığını yaxşılaşdırmaq, bacarıqlarını inkişaf etdirmək üçün proqramlar hazırlayır.

Konqo Demokratik Respublikasındakı Məşğulluq Xidməti Beynəlxalq Əmək Bürosunun dəstəyi ilə ROMA proqramını yaradır və əsas bacarıqları gücləndirmək üçün təşəbbüslər həyata keçirir.

# Xidmət təklifinin hazırlanması və uyğunlaşdırılması

## Rəqəmsallaşma

Texnologiya getdikcə daha çox profil və ya CV məlumatlarının yüksək təhlili ilə məsləhətçiyə dəstək olur, fəaliyyət üçün təkliflər edir. Məsələn, Cənubi Koreya Respublikasındakı Məşğulluq Xidməti müxtəlif məşğulluq məlumatları əsasında işaxtaranların CV-lərini təhlil edən və fərdi məsləhətlər, əmək bazarı haqqında məlumat, karyera inkişafı yol xəritəsi və s. təmin edən xidmət həyata keçirir.

Texnologiya daha ucqar ərazilərdə həllər təqdim etmək və onları hamı üçün daha əlçatan etmək məqsədilə effektiv və səmərəli üsul təklif edir. Buna Seneqaldakı ANPEJ, Kambocadakı NEA, Uruqvay və Mozambikdəki Məşğulluq Mərkəzləri, İsveçrədəki SECOT-TC və Macarıstandakı NES kimi bir sıra Məşğulluq Xidmətini nümunə göstərmək olar. Əksər ölkələrdə Məşğulluq Xidmətləri də rəqəmsal bacarıqların öyrədilməsi təşəbbüsləri ilə bu inkişafı dəstəkləyir və rəqəmsal uçurumu azaltmağa kömək etmək üçün tərəfdaşlar axtarır.

# Xidmət təklifinin hazırlanması və uyğunlaşdırılması

## Fərdiləşdirmə

Fərdi yanaşma Məşğulluq Xidməti tərəfindən təklif olunan xidmətlər arasında əsas xüsusiyyətdir. Məsələn, Perudakı Milli Məşğulluq Xidməti bunu "Məşğulluğa aparan yol" adlı strategiyaya daxil edilmiş məşğulluq, məşğulluğun və sahibkarlığın təşviqi üçün bir neçə xidmətləri birləşdirən, istifadəçilərin profilinə və ehtiyaclarına uyğun olaraq fərdiləşdirilmiş xidmətlər toplusunu yaradaraq nümayiş etdirdi.

Azərbaycan Dövlət Məşğulluq Agentliyi də "Fərdi Məşğulluq" proqramlarını həyata keçirərək öz tövhəsini verir.

## Vasitəçilik və uyğunlaşdırma

Vasitəçilik və uyğunlaşdırma hələ də daha dərindən araşdırılmalıdır. Bu sahədə yanaşmalar və alətlər inkişaf edir, çünki peşə, iş və bacarıqların sürətli dəyişməsi ilə uyğunlaşma getdikcə çox əhatəli yanaşmalar tələb edir. Bacarıq çatışmazlığı ilə xarakterizə olunan əmək bazarında həm vakansiya axtarışı, həm də namizəd axtarışı daha geniş və daha yaradıcı axtarışlar tələb edir.

## Xidmət təklifinin hazırlanması və uyğunlaşdırılması

### Xidmət təklifinin yaradılması

Sloveniyanın Məşğulluq Xidməti tərəfindən qoyulmuş nümunədə yeni xidmət modellərinin tədqiqi, inkişafı və tətbiqi Məşğulluq Xidmətindən ya birbaşa istifadəçiləri daha çevik metodlarla prosesin formalaşdırılmasına daxil etməyi, ya da birbaşa rəy almaq və istifadəçi məmnuniyyətini qiymətləndirmək yolu ilə işləməyi tələb edir.

### Şəbəkə genişliyi

Nəhayət, ərazilərin iqtisadi və sosial inkişafının dəstəklənməsi kontekstində gördüyümüz kimi, Məşğulluq Xidməti öz şəbəkəsini və ərazi əhatəsini genişləndirmək üçün müxtəlif vasitələrdən istifadə edir.

Benindəki Məşğulluq Xidməti, Beninin bütün bələdiyyələrində on üç departament filialının operativ qolları kimi xidmət edəcək Yerli Məşğulluğun Təşviqi Bölmələrinin yaradılmasına və fəaliyyət göstərməsi mövzusunda qərarlıdır.

# İstifadəçilərimiz üçün xidmətlərin təkmilləşdirilməsi

Növbəti il ərzində Məşğulluq Xidməti tərəfindən vətəndaş/müştəri və ictimaiyyət üçün prioritet olacaq istiqamətlər




Xidmətin inkişafı üçün prioritet istiqamətlər - Müqayisə 2023/2022 (cavablar faizlə)

WAPES World Association of Public Employment Services

## İstifadəçilərimiz üçün xidmətlərin təkmilləşdirilməsi

Yüksək rəqabətli əmək bazarında məşğulluğun təmin edilməsində qeyri-bərabərliyi azaltmaq məqsədi ilə Məşğulluq Xidmətləri prioritetləri işaxtaranlara yönəltməyə davam edir.

Çoxsaylı dəyişikliklərlə müşayiət olunan iqtisadi yüksəliş dövründə indi iş imkanlarının çatışmazlığı namizəd çatışmazlığı ilə əvəz olunur. Hesabatın təhlilindən görə bilərik ki, Məşğulluq Xidmətləri bu qısamüddətli işçi çatışmazlığını azaltmaq üçün fəal şəkildə cəlb olunsa da, əmək bazarının struktur aspektləri ilə bağlı əsas fəaliyyətini davam etdirirlər. İqtisadiyyatın əksər sektorlarının artan işçi qüvvəsi çatışmazlığından təsirlənən sektorlar bu cür gərginliyə çoxdan öyrəşmiş sektorlardır (əmək haqqı, iş şəraiti, peşə təliminə qeyri-kafi sərmayə, qeyri-adekvat ilkin hazırlıq).

Ətraflı təhlil göstərir ki, Məşğulluq Xidmətləri əmək bazarının hamı üçün əlçatan olması üçün səylərini davam etdirir və əhalinin ən həssas təbəqələrinə xüsusi diqqət yetirirlər.

Əmək bazarı haqqında informasiya sistemləri sahəsində müşahidə edilən tənəzzülü əvvəlki illərdə bu sahədə əhəmiyyətli dərəcədə ciddi işlərin görülməsi ilə izah etmək olar.

Məşğulluq Xidmətləri özlərini informasiya sistemlərilə təchiz etdi və/və ya əmək bazarı məlumatlarını bölüşmək üçün lazımi tərəfdaşlıqlara nail oldu.

## Xidmətlərin genişləndirilməsi

Məşğulluq Xidmıtləri üçün ən əsas üç mövzu müvafiq olaraq bu şəkildədir: fəaliyyət və xidmətlərin həssas və ya məhdud imkanlara sahib qruplara yönəldilməsi, işləyən əhaliyə qarşı aktiv tədbirlər və bacarıqların idarə edilməsi / peşə təhsili.



## Həssas qruplar

Həssas qrupların problemi bölgəyə və məşğulluq imkanlarına görə fərqli şəkildə nəzərə alınır, lakin Məşğulluq Xidmətlərinin əksəriyyəti bunu ictimai fəaliyyətlərinin əsası kimi qəbul edirlər.

Seneqaldakı Məşğulluq Xidməti, həssas qrupların ehtiyaclarına cavab verən fərdi xidmətlərin göstərilməsinə daim diqqət yetirir, təhlükəli sayılan işlərə yönəlmiş bir strategiya tətbiq edir.

Malidə Məşğulluq Xidmətləri, xüsusilə gənclər və NEET (iş, təhsil və ya peşə təhsili olmayanlar) üçün sosial təcrid risklərinin aradan qaldırılmasına və qarşısının alınmasına yönəlmiş sosial-peşə inteqrasiyası təşəbbüslərində iştirak edir.

Bununla bağlı fəaliyyəti Azərbaycan Dövlət Məşğulluq Agentliyi, Xorvatiya Məşğulluq Xidməti, Koreya Respublikasında KEYS, İspaniyada SEPE, Moldovada NEA və Fransada Pope Emploi Məşğulluq Xidmətlərində görmək olar.

Bu həssas qruplar arasında gənclər (NEET), əlillər, uzunmüddətli işsizlər, qeyri-sabit əmək fəaliyyəti ilə məşğul olan şəxslər (müqaviləsiz, sığortasız, az maaşlı,təhlükəli, qeyri-standart işlər) və miqrantlar yer alır.

## İstifadəçilərə qarşı daha aktiv tədbirlər (işləyən şəxslər və bizneslər)

Nəticədə, Konqo Respublikasındakı ONE adlı qurumun nizamnaməsində şirkətlərlə fəaliyyətinin gücləndirilməsinə yönəlmiş dəyişikliklər edildi. Kanadada Məşğulluq Xidməti ilkin mərhələdə işəgötürənlərlə işləyərək onların insan resurslarının idarə edilməsi təcrübələrini mövcud əmək bazarına adaptasiya edilməsi üçün çalışır.

Benində Məşğulluq Xidmətləri, 200 gəncdən ibarət bir qrupu beynəlxalq könüllü statusu ilə 150 xarici şirkətdə işə götürməyi hədəfləyən layihənin həyata keçirilməsində iştirak edib. İştirakçılar gəlir vergisindən, habelə səyahət xərclərinin ödənilməsindən azaddır və yüksək keyfiyyətli sosial təminat kimi bir çox digər üstünlüklərdən yararlana bilərlər.

## Karyera və bacarıqların idarə edilməsi

Bacarıqların inkişafı və peşə təhsili peşəkar inteqrasiya və ya reinteqrasiyanı asanlaşdırmaq üçün vacib vasitələrdir və peşəkar karyera və karyera idarəçiliyinin təmin edilməsində əsas sütunlardır.

Ölkə və gəlir səviyyəsindən asılı olmayaraq, məşğulluq və təlim arasında səmərəli bir əlaqə qurmaq böyük bir çağırışdır və Məşğulluq Xidmətləri üçün davamlı şəkildə diqqətdə olan mövzudur.

İqtisadiyyatın və biznesin istər ilkin, istərsə də davamlı öyrənilən peşəkar bacarıqlara olan ehtiyacları təlim sistemi ilə eyni vaxtda dəyişmir.

Mozambik Məşğulluq Mərkəzi gənclərin iş dünyasına qoşulmalarına və peşə bacarıqlarını inkişaf etdirmələrinə kömək etmək üçün peşə hazırlığı kursları təşkil edir.

Portuqaliyadakı Məşğulluq Xidmətləri fərdi öyrənmədən istifadə edərək tədris planlarını getdikcə əmək bazarının ehtiyaclarına uyğunlaşdırır. Müəssisə işsizliyin qarşısını almaq və əmək bazarına qayıtma şərtlərini yaxşılaşdırmaq üçün kadr hazırlığı və yenidən hazırlıq proseslərini təşkil edir. Portuqaliya, Macarıstan və Çaddakı Məşğulluq Xidmətləri iş müraciətlərinin və vakansiyaların müəyyənləşdirilməsi peşə və bacarıqların təsnifatı sistemlərinin tətbiqinə əsaslanır. Bu peşə və bacarıqları təsnif və təsvir etmək üçün məşğulluq və peşə təhsili dünyasının müxtəlif iştirakçıları arasında ortaq bir dil yaratmaq üçün vacib vasitələrdir. Onlar həmçinin bacarıq tələbi və təklifi arasında uyğunlaşma proseslərini təkmilləşdirmək üçün ən uyğun alətlərdir.

## Karyera və bacarıqların idarə edilməsi

Belçikadakı Məşğulluq Mərkəzi təlimlərini daha əlçatan etmək, təlim resurslarını əmək bazarına dinamik şəkildə uyğunlaşdırmaq əsas strateji məqsədlərdəndir. Həmin Məşğulluq Mərkəzi hesab edir ki, əlçatanlığın təkmilləşdirilməsi işçi qüvvəsinin bacarıq səviyyəsinin yüksəldilməsi üçün vacibdir.

Öyrənmənin inkişafı bu sektorlarda fəaliyyət göstərən şirkətlərlə tərəfdaşlığın genişləndirilməsinə və gücləndirilməsinə əsaslana bilər ki, bu da investisiyaların bölüşdürülməsinə imkan verir və təlimçilərin (təlim mütəxəssisləri və təcrübələrini ötürən şəxslər) işini asanlaşdırır.

Belçikadakı Məşğulluq Mərkəzi tərəfdaşlarına və şirkətlərin reputasiyasına və yerli səviyyədə obyektiv diaqnostikasına etibar edir. Təlimə daxil olan insanların sayının artırılmasına kömək etmək üçün peşələrin təşviq edilməsinə yönəlmiş təşəbbüslər göstərməyə qərarlıdır.

## Təşkilatçılıq və idarəetmə



## Təşkilatçılıq və idarəetmə

2022-ci ildə 29% ilə qeyd edilən yerlərin inkişafı və şəbəkənin əhatəsi 2023-cü ildə 16%-ə düşüb. Bu Məşğulluq Xidməti tərəfindən strategiya dəyişikliyinin əlamətidir, həmçinin səmərəlilik, operativlik və nəticə yönümlülük axtarışıdır.

Belə yenilikçi/yaradıcı yanaşmaları Mozambikdəki Məşğulluq Xidmətinin həyata keçirdiyi və istehsal alətlərinin birbaşa tədarükü ilə özünüməşğulluğun inkişafını təşviq etdiyi proqramda görmək olar.

Peru Məşğulluq Xidmətindən nümunə qeyd etmək olar ki, onlar getdikcə daha geniş əhaliyə yönəlmiş proaktiv kommunikasiya kampaniyalarında iştirak edir (regional hakimiyyət orqanları ilə əməkdaşlıq, ali təhsil müəssisələrində yarmarkalar və s.).

Avstriyadakı Məşğulluq və Uruqvaydakı İş Mərkəzləri üçün xidmətlərə çıxışın, məsləhət və maliyyə yardımının əldə edilməsi prosedurlarının sadələşdirilməsi, həmçinin sadə və rəqəmsal alətlər vasitəsilə xidmətlərin əlçatan olması mühüm məsələdir.

## UX inteqrasiyası və davamlı öyrənmə

Rəqəmsallaşdırma istifadəçilərin rəylərini dəyərləndirməyi asanlaşdırır. Kanada Məşğulluq və Sosial İnkişaf Departamentinin məqsədi getdikcə rəqəmsal xidmətlərin dəstəyi ilə istifadəçi təcrübəsini və nəticələrini yaxşılaşdırmaqdır.

İsveçdə Arbetsförmedlingen, Tunisdə ANTİ, Peruda Milli Məşğulluq Xidməti və ya Avstriyada AMS kimi Məşğulluq Xidmətlərinin əksəriyyəti, bu təcrübədən faydalanır və xidmətin inkişafı prosesində müştəri rəylərini nəzərə alır və bəzi hallarda müştəriləri xidmətlərin inkişafı prosesinə cəlb etməkdən çəkinmir (məsələn, Fransa Məşğulluq Xidməti).

Xidmətlərin və ya tədbirlərin davamlı təkmilləşdirilməsi və fəaliyyətinin ölçülməsi hazırda Məşğulluq Xidmətləri təşkilatlarının ümumi xüsusiyyətidir.

# UX inteqrasiyası və davamlı öyrənmə

Davamlı öyrənmə təşəbbüslərininin Məşğulluq Xidmətlərinin potensialının artırılmasına müsbət təsirləri vurğulanmalıdır:

1. Koreya Respublikasındakı KEIS şirkəti, məşğulluq xidməti müəssisələrinin potensialının artırılması istiqamətində fəaliyyət göstərir və onlar üçün keyfiyyətli dəstək sistemlərini inkişaf etdirir.

2. WAPES-in (Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyası) SamPES ilə hazırladığı beynəlxalq əməkdaşlıq strategiyaları və Yaponiya, Koreya Respublikası və Kamboca arasında "Birgə layihə" mübadilə proqramı və ya Avropa İttifaqına üzv ölkələrin Məşğulluq Xidmətlərinin Benchlearning* yanaşması nümunə ola bilər.

***Benchlearningə aparıcı (digər) təşkilatların hansısa prosesə yanaşma tərzinə baxmaqla öyrənməkdir.**

## Yerli xidmət təchizatçılarının və tərəfdaşlıqların idarə edilməsi

Yerli hakimiyyət orqanları ilə əməkdaşlıq çox vaxt məşğulluq fəaliyyətinin effektiv əhatələnməsinin açarıdır. Keniyadakı Məşğulluq Xidməti bildirir ki, dövlət məşğulluq xidmətləri iş axtaranlara hərtərəfli dəstək vermək üçün təhsil müəssisələri, təlim təminatçıları və qeyri-kommersiya təşkilatları kimi digər təşkilatlarla işləməlidir.

Portuqaliyada Məşğulluq Xidməti artıq mövcud tərəfdaşlıqları möhkəmləndirmək və yenilərini təşviq etmək məqsədi daşıyır, istər dövlət, istərsə də özəl olsun, təlim və əmək bazarında digər oyunçular ilə münasibətlərin yenidən qurulması üçün zəmin yaradır.



## Şəbəkələrin inkişaf etdirilməsi

Konqo Demokratik Respublikasındakı Məşğulluq Xidməti bacarıq mərkəzləri və ya iş mərkəzləri şəbəkəsinin yaradılmasının tərəfdarıdır. Bu ideya Benində milli məşğulluq planının bir hissəsi kimi irəli sürülür və məşğulluq mərkəzləri üçün yeni bir xidmətin yaradılmasını zəruri edir.

İspaniyada qanun dəyişikliyindən sonra Məşğulluq Xidməti ictimaiyyətə daha keyfiyyətli həllər təqdim etmək üçün agentliyə çevrilir.



## Rəqəmsal xidmətlərin inkişafı



## Rəqəmsal təkliflərin inkişafı

Rəqəmsal xidmətlərin gücləndirilməsi və inkişafı əksər Məşğulluq Xidmətləri üçün prioritet olaraq qalır: məsələn, Kamboca, Türkiyə, Albaniya, Estoniya, Kamerun, Bosniya Herseqovina, Macarıstan, Əlcəzair, Mərakeş, İspaniya, Uruqvay, Sloveniya, Tunis.

## Texniki şəbəkənin genişləndirilməsi

Rəqəmsallaşdırma yalnız əlçatanlığı təmin etmir, həm də istifadəçi təcrübəsini və məmnuniyyətini izləməyə və davamlı inkişafı təmin etmək üçün keyfiyyət və performans indikatorlarını inkişaf etdirməyə imkan verir.

## Süni intellektin tədricən tətbiqi

Bir çox Məşğulluq Xidmətləri süni intellektdən istifadəyə xüsusi əhəmiyyət verir. Onlar investisiyaları iş mühiti problemlərinin həllinə yönəltmişdir. Bu il Koreya Məşğulluq Xidməti “ağıllı” xidmətlərin yaradılması üzərində işləyir:

- Vakansiyaların uyğunlaşdırılması üçün qabaqcıl ağıllı xidmətlər
- Ağıllı karyera bələdçiliyi xidmətləri

# İnsan resursları fəaliyyətləri

Məşğulluq Xidməti əməkdaşlarının akkulturasiyası* və rəqəmsal bacarıqlarının inkişafı təşkilatın və xidmətlərin transformasiyasının mühüm amilidir. Bu dəyişikliklərin, xüsusən məsləhətçilər və digər peşələrin fəaliyyətlərinə təsiri, əsas bacarıqların da nəzərdən keçirilməli və inkişaf etdirilməli olduğunu göstərir.

Məşğulluqdan uzaq olan daha həssas qruplara yönəldilmək məqsədi ilə dəstək xidmətlərinin inkişafı məsləhətçilərdən xüsusi peşə biliklərini və bacarıqlarını təkmilləşdirməyi tələb edir.

Afrika Məşğulluq Xidmətlərinin təmsilçiləri hələ də iqtisadi artım və iş yerlərində qeyri-rəsmiliyə qarşı mübarizə üçün effektiv vasitə kimi gördükləri sahibkarlığın inkişafında ciddi şəkildə iştirak edirlər.

*** Akkulturasiya - fərdlərin və ya qrupların hər hansı mədəniyyətə uyğunlaşması**

# 2023-cü il üçün dövlət proqramları və fəaliyyət planları üçün hədəflər

## Müəyyən bir auditoriya (işləyən şəxslər və müəssisələr) və ya milli prioritetlər üçün hazırda planlaşdırılan və ya həyata keçirilən milli (hökumət) proqramlar və ya planlar varmı?




WAPES
World Association of Public Employment Services

## 2023-cü il üçün dövlət proqramları və fəaliyyət planları üçün hədəflər

2023-cü ilin cavablarını və onların sıralamasını 2022-ci il məlumatları ilə müqayisə etsək, çoxillik planlara əsaslanan məşğulluq siyasətində müəyyən sabitlik nəzərə çarpır. Keçən il olduğu kimi, bir çox hökumət üçün əlillər, iş dünyasına daxil olan gənclər və “NEET” adlandırdığımız iş, təhsil və ya peşə təhsili olmayan gənclər kateqoriyası üçün iş bərabərsizliyini azaltmaq məqsədilə prioritetlər təyin olunmuşdur.

# Afrika regionu üçün prioritetlər

## Cavab verən ölkələr: Seneqal; Mali, Mozambik, Konqo, Keniya, Çad, Benin, Kamerun.




WAPES
World Association of Public Employment Services

## Afrika regionu üçün prioritetlər

Cənub yarımkürəsindəki ölkələrin əksəriyyəti (Afrika, Asiya və Latın Amerikası) üçün sahibkarlığın inkişafı onların əmək bazarına xas olan reallıqlara əsasən müəyyən edilir.

- Hər il əmək bazarına daxil olan gənc məzunlar üçün yeni inteqrasiya imkanları yaratmaq
- Gənclərə mühacirət və ya işsizliyə alternativ təklif edərək təhsilə qoyulan investisiyalardan yararlanmaq
- Fərdi təşəbbüsü dəstəkləməklə qeyri-rəsmi sektorun çəkisinin azaldılmasına və layiqli iş yerlərinin nisbətinin artırılmasına birbaşa töhfə vermək
- Daha həssas qruplar üçün (qadın sahibkarlığının inkişafı, çətin vəziyyətdə olan gənclər və ya əlilliyi olan insanlar üçün inteqrasiya fəaliyyətlərinin yaradılması və s.) dəstək alətləri və xidmətlərə çıxışı təşviq etməklə bərabərsizliyi və ayrı-seçkiliyi azaltmaq
- Rəqəmsal texnologiyaların inkişafı və yeni iş formalarının ortaya çıxması ilə yaranan yeni sahibkarlıq sahələrinə diqqət ayırmaq
- Əlilliyi olan şəxsləri məşğulluğa inteqrasiya etmək və saxlamaq

# Amerika regionu üçün prioritetlər

Cavab verən ölkələr: Kanada, Kanada/Kvebek, Uruqvay və Peru.




WAPES World Association of Public Employment Services

## Amerika regionu üçün prioritetlər

Bütün cavablarda gender bərabərliyi və əlilliyi olan insanlara dəstək üzrə əsas 2 məsələ prioritet kimi göstərilir.

Beləliklə, beynəlxalq mobillik və miqrasiya əksər bölgələrdə olduğu kimi eyni yeri tutur.

Gələcək üçün əsas problemlər iqlim dəyişikliyi ilə əlaqəli transformasiyaların dəstəklənməsi və yaşlı vətəndaşların məşğulluğudur (işləyən əhalinin qocalması). Bura həmçinin gənc NEET-lərin problemi və ciddi dəyişikliklərə məruz qalan və ya məruz qalacaq müəyyən fəaliyyət sektorlarında struktur bacarıq çatışmazlığının aradan qaldırılması daxildir.

Əsasən şimal yarımkürəsi ölkələrində olmaqla, Covid-19 pandemiyasıdan sonrakı bərpa prosesi əmək bazarında gərginliyi artırıb və işçi çatışmazlığı yaradıb.

# Asiya-Sakit okean regionu üçün siyasət prioritetləri

## Cavab verən ölkələr: Kamboca, Avstraliya, Koreya Respublikası.



## Asiya-Sakit okean regionu üçün siyasət prioritetləri

Cavab verən ölkələr: Kamboca, Avstraliya, Koreya Respublikası.

Əvvəlki regionda (Amerika) olduğu kimi, Məşğulluq Xidmətlərinin cavab nümunəsi düzgün təhlil üçün kifayət etmir, lakin buna baxmayaraq, cavab verən 3 Məşğulluq Xidməti tərəfindən ifadə edilən prioritetlər ümumi narahatlıqları müəyyən etməyə imkan verir.

Yaşlı insanların işdə saxlanmasına və onlara dəstək olunmasına, xüsusən də Koreya Respublikası və Avstraliya tərəfindən verilən prioritet Kanada və şimal yarımkürəsinin bir çox başqa ölkələri ilə eynidir. Bu, yaşlı əmək qabiliyyətli əhalinin ümumi demoqrafik təsirləri, bəzi kateqoriyalı gənclərin (ilk dəfə işaxtaranlar, NEETS və s.) əmək bazarına inteqrasiyası ilə bağlı çətinliklərin öhdəsindən gəlməli və post-COVİD iqtisadiyyatının bərpası zamanı bacarıqlara tələbatın görünməmiş artımı ilə əlaqələndirilməlidir.

# Avropa regionu üçün siyasət prioritetləri

Cavab verən ölkələr: Albaniya, Avstriya, Azərbaycan, Belçika (The FOREM və VDAB), Bosniya və Herseqovina, Xorvatiya, Estoniya, Fransa, Macarıstan, Portuqaliya, Moldova Respublikası, Sloveniya, İspaniya, İsveç, İsveçrə, Hollandiya, Rusiya Federasiyası, Türkiyə




WAPES World Association of Public Employment Services

## Avropa regionu üçün siyasət prioritetləri

Gənc NEET-lər məsələsi Avropa ölkələrinin əksəriyyətinin siyasət və proqramlarında əsas yer tutur. Məhz bu səbəbdən Avropa regionu Azərbaycan və Türkiyədən olan həmkarlarımızın təşəbbüsü ilə WAPES-in gündəliyində bu mövzuda konfransın keçirilməsi təklif edilib.

Bosniya və Herseqovina Əmək və Məşğulluq Agentliyindən olan həmkarlarımız tərəfindən həssas qruplara dəstək məsələsinə daha yaxından baxmaq üçün Avropa regionu daxilində aparılan sorğu davam edir və yaxın vaxtlarda müzakirə mövzusu olacaq. Bu sorğuda verilən suallara verilən müxtəlif cavablardan görə bilərik ki, bütün Avropa ölkələri (Aİ və Aİ-yə daxil olmayan) indi məşğulluq səviyyəsini artırmağa doğru irəliləyir. Şimal yarımkürəsində və yüksək gəlirli ölkələrə yaşlı əhalinin təsirlərini düzəltmək və risklərinin qarşısını almağa çalışırlar. Görə bilərik ki, Məşğulluq Xidmətləri əmək qabiliyyətli əhalinin məşğulluğunun inkişaf etdirilməsində ciddi şəkildə iştirak edirə: mələn, gənc işçilərin əmək bazarına inteqrasiyasını sürətləndirmək və yaşlı işçilərin işini itirdikləri təqdirdə işlərində qalmalarına və ya daha tez işə qayıtmalarına kömək etmək.

Rusiya Federasiyası ilə Ukrayna arasındakı silahlı qarşıdurmanın Avropadakı iqtisadiyyata və məşğulluğa da böyük təsir göstərib. Avropa Məşğulluq Xidmətlərinin onları qəbul etmək və inteqrasiya etmək üçün qüvvələrini səfərbər etməsi böyük qaçqın axınlarına səbəb olmuşdur.

# Yaxın Şərq və Ərəb Ölkələri üçün siyasət prioritetləri

Cavab verən ölkələr: Əlcəzair, Mərakeş, Tunis




WAPES World Association of Public Employment Services

## Yaxın Şərq və Ərəb Ölkələri üçün siyasət prioritetləri

Bu qitənin bir çox ölkəsi kimi, bu üç ölkədə gənclər demoqrafik olaraq üstünlük təşkil edir, qitənin qalan hissəsindən fərqli olaraq biz yaşlı insanların işdə saxlanmasına xüsusi diqqət yetirildiyini görürük. Hər il əmək bazarına daxil olan gənclərin inteqrasiyası prioritet olaraq qalır. Afrika regionunda olduğu kimi, bu çağırışa cavab verən vasitələrdən biri sahibkarlığın müxtəlif formalarda inkişafıdır. Bu 3 ölkədəki Məşğulluq Xidmətləri maliyyə aspektləri də daxil olmaqla, biznesin başlanması prosesi boyunca sahibkarları müəyyən etmək və dəstəkləmək üçün Avropa Məşğulluq Xidmətlərindən yüksək strukturlaşdırılmış xidmət təklifləri hazırlamışdır.

Gənc əhalinin istəkləri ilə əlaqəli başqa bir çağırış yüksək bacarıqlara sahib şəxslərin başqa ölkələrə axınının qarşısını almaqdır. Bunun üçün regionda bacarıqları sabitləşdirmək və peşəkarların miqrasiyasına nəzarət etmək, çatışmazlıqları aradan qaldırmaq üçün cəlbedici siyasətlər hazırlayırlar.

Son illərdə Məğrib ölkələri (Əlcəzair, Liviya, Mavritaniya, Mərakeş, Tunis, Qərbi Sahara) də xüsusilə sub-Sahara Afrikasından olan gənclər üçün cəlbedici olub və buna görə də bu köç məsələləri ilə məşğul olmalı və nəticədə qəbul və inteqrasiya baxımından həllər təqdim etməlidir. Məşğulluq xidmətləri bu baxımdan əsas rol sahibləridir.

## 2023-cü il üçün daxili əməliyyat prioritetləriniz

Fəaliyyət göstərdiyiniz Məşğulluq Xidməti qurumunda onun daxili təşkilatını və işçilərinin iş şəraitini inkişaf etdirməyə və dəyişdirməyə yönəlmiş üç prioriteti qeyd edin.



## 2023-cü il üçün daxili əməliyyat prioritetləri

2022-ci il sorğusunun məlumatlarını müqayisə edərək belə nəticəyə gələ bilərik ki, ümumilikdə sorğuda iştirak edən Məşğulluq Xidmətlərində daxili təşkilata və işçilərinin iş şəraitinə oxşar yanaşma tətbiq edilib.

Bu il təşkilatçılıq və idarəetmə ilə yanaşı, insan resurslarına daha çox diqqət yetirilib. Digər tərəfdən, ötən ilin göstəriciləri ilə müqayisədə avadanlıq, alətlər və rəqəmsallaşdırmada, ünsiyyətdə azalma müşahidə olunub. Bunu qismən onunla izah etmək olar ki, 2021 və 2022-ci illərdə pandemiyanın təsiri ilə bu iki sahəyə əhəmiyyətli investisiyalar qoyulmuşdur və bu proses indi daha çox təkrarlanan əməliyyatlara çevrilmişdir.



## 2023-cü il üçün daxili əməliyyat prioritetləri - insan resursları




WAPES
World Association of Public Employment Services

## 2023-cü il üçün daxili əməliyyat prioritetləri - insan resursları




WAPES
World Association of Public Employment Services

## 2023-cü il üçün daxili əməliyyat prioritetləriniz - insan resursları

“Bacarıqların inkişafı” fəaliyyətin yenidən balanslaşdırılması və xüsusilə yeni insan resursların mövzuları ilə bağlıdır.

Məşğulluq xidməti məsləhətçilərinin bacarıqlarının inkişafına sərmayə qoyuluşu əksər Məşğulluq Xidmətlərində daxili prioritet kimi göstərilir. Eyni zamanda, bir çox Məşğulluq Xidməti öz biznes xidmətlərini gücləndirmək üçün lazım olan bacarıqlara yenidən investisiya qoyur.

Rəqəmsal texnologiyalardan istifadə edərək özünüidarəetmə xidmətlərinin inkişafı məsləhətçilərin bacarıqlarının məsləhət və dəstək fəaliyyətlərinə yönəldilməsini nəzərdə tutur. Bu da peşəkar bacarıqların mənimsənilməsini, tərəfdaşlarla işləmək üçün yeni bacarıqları və işləyən əhali üçün karyera bələdçiliyi sahəsində təkmilləşdirilmiş bacarıqlar tələb edir.

Təşkilati dəyişikliklər, iş təcrübələrində və sənayedəki dəyişikliklər, performans və keyfiyyətin idarə edilməsi yanaşmalarının geniş şəkildə mənimsənilməsi də menecerlərin bacarıqlarına böyük təsir göstərmişdir. Buna görə də, bir sıra Məşğulluq Xidmətləri bu kateqoriyadan olan işçilər üçün təlim prioritetlərini müəyyən etmişdir.

## 2023-cü il üçün daxili əməliyyat prioritetləri - insan resursları

İkinci mövzu iş şəraitinə aiddir. Digər şirkətlərdə olduğu kimi, təşkilatlarımız da iki tendensiyanın kəsişməsindədir: işin qeyri-materializasiyası və gənc nəsillər arasında xüsusilə güclü olan sosial gözləntilərin dəyişməsi. Yeni texnologiyalarla dəstəklənən, daha çox birgə iş olan hibrid iş bir sıra Məşğulluq Xidmətlərində yeni normaya çevrilib. Bununla belə, bu proseslər hələ də müşahidə edilir, çünki biz onların həm performans, həm də işdə həyat keyfiyyəti baxımından bütün təsirlərini qiymətləndirmirik. Kanada Məşğulluq və Sosial İnkişaf üzrə həmkarlarımız işçilərə növbə ilə ofisdə və evdə işləməyə imkan verən ümumi hibrid iş modelini qəbul edir. Bu oriyentasiya, iş yerindən kənarda işləməyin çevikliyini və sağlam iş-həyat balansını qorumaqla, insanların kollektiv təcrübəsini səfərbər etməyin faydalarını maksimum dərəcədə artırmağa çalışır. Oxşar yanaşma Portuqaliyada da tətbiq olunur.

İsveçrədəki SECO-TC həmçinin uzaqdan iş formasını fərdiləşdirmək və eyni zamanda komanda işini inkişaf etdirmək üçün addımlar atmışdır. Avstriya, Fransa da uzaqdan işləmənin inkişafına xüsusi diqqət yetirir və bu dematerializasiyanı müşayiət edən alətləri də nəzərdən keçirir.

## 2023-cü il üçün daxili əməliyyat prioritetləriniz - Təşkilat




WAPES
World Association of Public Employment Services

## 2023-cü il üçün daxili əməliyyat prioritetləri - Təşkilat

Buna misal olaraq sektor komandalarının işini və fəaliyyətin müəyyən sektorlarında “ixtisaslaşmış” məsləhətçilərin işini yenidən müəyyənləşdirən Məşğulluq Xidmətini (Belçika) göstərmək olar. Yeni uyğunlaşdırılmış dəstək sisteminin bir hissəsi olaraq, o üz-üzə kabinetlərdə sektor dəstəyi təqdim edir, işaxtaranlara axtardıqları işlə bağlı dəstək verilir. Bu o deməkdir ki, məsləhətçilər (və şirkətlər) xüsusi peşəkar sektorlarda (məsələn, turizm və ya tikinti) ixtisaslaşırlar.

Estoniya işəgötürənlərin xidmətlərinə daha çox diqqət yetirmək üçün 2023-cü ildə bu hədəf qrupuna həsr olunmuş ayrıca şöbə yaratmaq qərarına gəlib.

Albaniya və Belçika Məşğulluq Xidmətləri insan resursları departamentlərini yenidən təşkil edir.

Bu sahədə Afrika Məşğulluq Xidmətləri aktiv iştirak edir. Məsələn, Mali tərəfdaş şəbəkəsi ilə resursların birləşdirilməsini təkmilləşdirməyə çalışır, Seneqal miqrasiya ilə məşğulluq layihə və proqramlarının dəyərini artırmaq üçün Seneqal-Alman Məşğulluq və Miqrasiya Mərkəzinin gücləndirilməsində iştirak edir.

Avstriya "ORG Neu" adlı layihə ilə yerli ofis şəbəkəsini yenidən təşkil etmək üçün layihəyə başlayır.

## Yeni transformasiya sahələri

Nəticələrdən aydın görünür ki, fəaliyyətlərin idarə edilməsi, keyfiyyət və performans məsələsi Məşğulluq Xidmətlərinin çağırış və istiqamətləri üçün əsas olaraq qalır.

Avstraliyadakı işçi qüvvəsi sistemi hökumətlə müqaviləli məşğulluq xidməti təminatçılarına edimad edir. Buna görə də nazirliyin əməkdaşları siyasətin işlənib hazırlanması, İT sistemlərinin yaradılması, müqavilələrin idarə edilməsi, hesabatların verilməsi və qiymətləndirilməsini dəstəkləmək üçün yüksək səviyyəli təlimlərdən keçirlər.

## Yeni transformasiya sahələri

Belçika Məşğulluq Xidmətləri digər sahələrlə yanaşı, aşağıdakı sahələr üzrə davamlı təkmilləşdirmə planı hazırlayır:

- Bələdçilik və inteqrasiya;
- Rəqəmsal alətlərdən istifadədə istifadəçilərə dəstək ;
- İş axtaranların müxtəlif profilləri üçün perspektivlər təklif edən sektorlar/peşələr üzrə vakansiyaların  müəyyən edilməsi;
- Biznes məsləhətçi modelinin ictimaiyyətə yönəldilməsi və konsolidasiyası və onların müştəri yanaşmasının inkişafı;

Ümumiyyətlə, Məşğulluq Xidmətlərində idarəetmə sistemlərinin daha çevik rejimlərə və daha strateji istiqamətlərə doğru inkişaf edən sisteminin bir hissəsi kimi konkret nəticələrin ölçülməsinə yenidən fokuslandığı aydın görünür.

# İdarəetmə


8%
8%
8%
8%
15%
54%
Performans idarəetməsi
Qiymətləndirmə
Əməkdaşlıq yanaşması
İnnovasiya
Resursların idarəetməsi
Dəyərlər

## İdarəetmə

Diaqramda 2023-cü ildə Məşğulluq xidmətlərinin idarəetmə siyasətini xarakterizə edə biləcək əsas məqamları asanlıqla görə bilərik:

- Bacarıqlarla tamamlanan fəaliyyətlərin idarə edilməsi, keyfiyyət və performansa əsaslanır, həmçinin heyətin qiymətləndirilməsi və ya özünü qiymətləndirmə üçün alətlərin hazırlanmasını əhatə edir.

- Yeni iş üsulları ilə əlaqəli əməkdaşlıq yanaşmalarını vurğulayır.

- Koreya Respublikasındakı Məşğulluq Xidməti ekspertlər arasında əməkdaşlığı gücləndirərək komandalar daxilində qarşılıqlı təsiri və əlaqəni optimallaşdırmaq istəyir.

- Azərbaycan Dövlət Məşğulluq Agentliyində innovasiyanın təkmilləşdirilməsi özünü təşkilatdakı innovasiya, tədqiqat və inkişaf məsələlərində əks etdirir.

- Konqo Respublikasında Məşğulluq Xidməti elmi tədqiqat və inkişaf bölməsi yaradıb, Malidə innovativ və struktur layihələrinə sərmayə qoyub və Hollandiyada fərdiləşdirilmiş xidmət inkişafına xüsusi diqqət ayırır.

# 2023-cü ildə Məşğulluq Xidmətləri üçün əsas çağırışlar və imkanlar

| Ölkə | Məşğulluq Xidməti | Növbəti il üçün hansı çağırış və imkanlar sizin üçün əsas məsələlərdir? |
|---|---|---|
| Albaniya | Məşğulluq və Bacarıqlar üzrə Milli Agentlik | • Əlilliyi olan insanların inteqrasiyası üçün sosial fondun və gənclər təminatının verilməsi<br>• İnsan resurslarının gücləndirilməsi və infrastruktur şəraitinin yaxşılaşdırılması |
| | | • Özünüməşğulluğa kömək proqramı üçün qrantlar<br>• Miqrasiya xidmətləri üçün yeni siyasətlər<br>• Özəl məşğulluq agentlikləri ilə işləmək üçün təcrübələr və modellər<br>• Qeyri-formal məşğulluğa qarşı mübarizə siyasəti |
| Əlcəzair | Milli Məşğulluq Agentliyi (ANEM) | • İşaxtaranların, xüsusən də ilk dəfə iş axtaranların bacarıqlarının iqtisadi müəssisələrin bacarıq ehtiyacları ilə uyğunlaşdırılması |
| | | • Gələcək illərdə müəssisələrin bacarıq ehtiyacları ilə bağlı məlumatlar və Agentlik ilə peşə təhsili sektorunda xidmətlər arasında mükəmməl əməkdaşlıq |
| Avstraliya | Məşğulluq Departamenti və İş yeri Münasibətləri | • Avstraliyanın işçi qüvvəsi siyasətlərinin iş axtaranlar və işəgötürənlər üçün nəticələr verməsini təmin etmək<br>• Məşğulluq xidmətlərinin dəyişən əmək bazarında işaxtaranların və işəgötürənlərin ehtiyaclarına uyğun şəkildə cavab verməsini təmin etmək. |
| | | • "Nümayəndələr Palatasının İşçi Qüvvəsi Avstraliya Məşğulluq Xidmətləri üzrə Seçmə Komitəsi Avstraliya İşçi Qüvvəsinin siyasət parametrləri ilə bağlı tövsiyələr verəcək. |

| | | |
|---|---|---|
| Avstraliya | Məşğulluq Departamenti və iş yeri münasibətləri | Komitə aşağıdakıları araşdıracaq və hesabat verəcək:<br>• Avstraliya işçi qüvvəsi məşğulluq xidmətlərinin tətbiqi, icrası və uyğunluğu<br>• Avstraliya işçi qüvvəsi məşğulluq xidmətlərinin ədalətli şəkildə təqdim edilməsi, heç kəsi geridə qoymaması, fərdlərin müxtəlif ehtiyaclarına hörmət etməsi və işaxtaranların təhlükəsiz iş tapmasına kömək etməsi, xüsusən də uzunmüddətli işsizlərə və gənclərə verdiyi dəstəyin dərəcəsi<br>• Avstraliyanın məşğulluq xidmətləri ilə bağlı digər məsələlər. |
| Avstriya | Avstriya Əmək Bazarı Xidməti, AMS | • İqtisadi durğunluq təhlükəsi, həm də “işçilərin idarə etdiyi bazar” riskləri: şirkətlər işçi qüvvəsini cəlb etmək üçün rəqabət aparır və düzgün işçi heyəti tapmaq məqsədilə kifayət qədər cəlbedici olmaq üçün təkliflərini (əməkhaqqı, iş şəraiti) yaxşılaşdırmalıdırlar.<br>• Demoqrafik dəyişiklik: bir nəsil təqaüdə çıxır, əlavə işçi qüvvəsi cəlb edilir (hərəkətsizliyin azaldılması, sağlamlıq və iş arasında balansın yaxşılaşdırılması). |
| | | • Gələcək əmək bazarının konkret ehtiyaclarına sürətli reaksiya/cavab<br>• Müştəri yönümlülük<br>• Kvalifikasiyaları və karyera bələdçiliyini dəstəkləmək |
| Belçika | VDAB | • Davamiyyətin təmin edilməsi (xəstəlik səbəbilə yaranan davamsızlığa qarşı); stress və tükənmişlik kouçları vasitəsilə tükənmişliyin qarşısının alınması<br>• Kouçlar vasitəsilə uzun müddətli xəstələr üçün reinteqrasiya layihələri<br>• Tərəfdaş ekosistemindən olan qeyri-peşəkar insanlara çatmaq üçün əlaqələndiricilərə investisiya qoymaq<br>• Kommunikasiya/marketinq: ən yaxşı təcrübəni nümayiş etdirmək<br>• Az işçi ilə daha çox iş görmək: işçilərin sayını azaltmaq |

| | | |
|---|---|---|
| Belçika | VDAB | • Yenilənmiş əməliyyat modeli və vasitəçi model<br>• İnklüzivliyi və imkanları açıq şəkildə başlanğıc nöqtəsi kimi istifadə edən yeni işəgötürən yanaşması<br>• Sağlam məlumat idarəetməsi üçün əsasın qoyulması<br>• Ekosistem daxilində daha geniş əməkdaşlıq |
| Belçika | The Forem | • İşçi çatışmazlığı ilə məşğul olunmalı və onlara cavab verməyə çalışılmalıdır |
| | | • NEET-lər üçün iş əlçatanlığının təşviq edilməsi<br>• Yerli işaxtarma mərkəzlərinin yaradılması<br>• Məhdud resurslu peşə sahiblərinin təlim üçün həvəsləndirilməsi<br>• Təlim pasportunun yaradılması<br>• Təlim infrastrukturu və avadanlıqlarına investisiya<br>• Uzunmüddətli işsiz şəxslər arasında məşğulluğun artırılması<br>• Rəqəmsal inklüziyanın təkmilləşdirilməsi<br>• NRRP - Milli Bərpa və Dayanıqlılıq Planı<br>• Avropa Benchlearning |

| | | |
|---|---|---|
| Benin | Milli Məşğulluq Agentliyi | • “Məşğulluğun təşviqi üçün vahid pəncərə” layihəsinin uğurla icrası<br>• Könüllülük və əmək bazarı məlumat sistemini idarə etmək üçün yeni öhdəliklər götürmək<br>• Hədəf qruplarını tam təmin etmək (iş axtaranlar və işəgötürənlər) |
| | | • Tədqiqatlar (audit, PDS və s.)<br>• Hökumət qrantları<br>• Həvəsləndirilmiş və peşəkar komanda |
| Bosniya və Herseqovina | Əmək və Məşğulluq Agentliyi | • İxtisaslı işçi qüvvəsinə tələb və təklifi arasındakı balansın təmin edilməsi<br>• Uzunmüddətli işsiz şəxslərin sayının azaldılması<br>• Gənclərin fəallığının artırılması və NEET-lərin sayının azaldılması |
| | | • Əmək bazarının araşdırılmasının təkmilləşdirilməsi, işəgötürənlərlə daha sıx əməkdaşlığın qurulması və təhsil sektoru ilə əməkdaşlığın təkmilləşdirilməsi<br>• Uzun müddətli işsiz şəxslər üçün ALMM dizayn və həyata tətbiqi<br>• Gəncləri təhsilə və işə qaytarmağa/saxlamağa kömək edəcək tədbirlər hazırlamaq və həyata keçirmək |

| | | |
|---|---|---|
| Kamboca | Milli Məşğulluq Agentliyi (NEA) | • Karyera bələdçiliyi üçün kadr potensialı təkmilləşdirilməlidir;<br>• Yeni işə qəbul edilmiş işçi qüvvəsinin bilik və bacarıqları əhəmiyyətsiz hesab edilir və ya sənayenin tələbinə uyğun gəlmir;<br>• İstifadəçi əlçatanlığı və rəqəmsal Məşğulluq Xidmətləri bilikləri məhduddur. |
| | | • Rəqəmsal Məşğulluq xidmətlərini gücləndirmək və genişləndirmək;<br>• Əmək bazarı məlumatlarının yenilənməsi və yayılmasının gücləndirilməsi;<br>• Rəqəmsal Məşğulluq Xidmətləri haqqında məlumatlılığı təmin etmək və artırmaq üçün maarifləndirmə tədbirlərini həyata keçirmək |
| Kanada | Məşğulluq və Sosial İnkişaf - İş Bankı | • Gələcəkdə də davam edə biləcək işçi çatışmazlığı (ən azı əhalinin qocalması səbəbindən) güclü, ixtisaslı işçi qüvvəsinə ehtiyac yaradır. İşsizlərin yeni sektorlarda iş tapması və qlobal təchizat zəncirlərinin imkanlarını artırmaq və mövcud çatışmazlıqları aradan qaldırmaq üçün vaxt lazımdır. Əmək bazarında daha yüksək və geniş bacarıqlar tələb edən və uzun müddət davam edən tendensiya, çox güman ki, çağırışlara cavab vermək üçün yeni bacarıqları tələb edəcək. Üstəlik, pandemiya bir çox kanadalının iş tərzini dəyişdi. Uzaqdan işləmə və hibrid iş rejimi çox güman ki, yayılmağa davam edəcək. Nəticə etibarı ilə bəzi işlərə tələbat artacaq, digərlərinə isə tələb heç vaxt pandemiyadan əvvəlki səviyyələrə qayıtmaya bilər. İşin təbiətindəki bu dəyişiklik bəzi işçilərin əmək bazarında uğur qazanması üçün lazım olan bacarıqları, xüsusən də rəqəmsal bacarıqları təkmilləşdirməyi tələb edir. Bu, təkrar emala olan ehtiyacı da artıracaq. |
| | | • Kanada işəgötürənlərin ixtisaslı işçilər axtardığı sektorlarda yaxşı iş tapmaq üçün lazım olan təlimlərlə əlaqələndirmək də daxil olmaqla, kanadalılara lazım olan bacarıqları əldə etmələrinə kömək etmək üçün yeni təşəbbüslər həyata keçirəcək. Kanada əmək bazarında uzun müddətdir çətinliklərlə üzləşmiş qrupların üzvlərini (məsələn, gənclər, qadınlar, əlillər, aborigen əhali və s.) dəstəkləməyə davam edəcək. Bu qruplara dəstək əmək bazarının nəticələrini yaxşılaşdırmağa kömək edəcək. Kanada tam və əhatəli bərpa üçün çalışır. |

| | | |
|---|---|---|
| Kanada | Məşğulluq və Sosial İnkişaf - İş Bankı | • Kanada sosial və əmək bazarının ehtiyaclarını ödəmək üçün tələb olunan yüksək keyfiyyətli məlumatların, tədqiqatların və təhlillərin işlənib hazırlanmasını təmin edəcək. Bu, siyasət və proqramların kanadalıların ehtiyaclarına daha da uyğun olmasını təmin edəcək. |
| Kanada/Kvebek | Tədbirlərin inkişafı və xidmətlərin göstərilməsi üçün Məşğulluq Agentliyi | • Əksər regionlarda və iqtisadi fəaliyyət sektorlarında işçi qüvvəsi çatışmazlığı<br>• Əmək bazarından uzaq olan işsizlərin işə cəlb edilməsi<br>• İşçilər üçün davamlı təlimlərin təşviqi |
| | | • İşsiz şəxslər üçün əmək bazarında tələb olunan bacarıqları inkişaf etdirmək məqsədilə təlimlər<br>• Məhsuldarlığı artırmaq məqsədilə şirkətlərə insan resurslarını idarə etmək və onların işçilərinə təlimlərin keçirilməsində kömək etmək. |
| Konqo | Milli Məşğulluq İdarəsi (ONEM) | • Təcrübə mübadiləsi, təhsil səfərləri və s. üçün innovativ tərəfdaşlıqlar yaratmaq<br>• Planlaşdırılan və həyata keçiriləcək texniki tədbirlər üçün lazımi subsidiyaların alınması<br>• Ofisin milli xidmətlərinin tam rəqəmsallaşdırılması |
| | | • WAPES, AASEP, Mərkəzi Hökumətin iştirakı<br>• İşəgötürənlərin ONEM-ə töhfələrində artımın əldə edilməsi<br>• Xarici maliyyə dəstəyi axtarmaq və əldə etmək |

| | | |
|---|---|---|
| Xorvatiya | Xorvatiya Məşğulluq Xidməti | • Son istifadəçilər üçün xidmətlərinin keyfiyyətini artırmaq, yüksək keyfiyyətli, müştəri yönümlü idarəetmə sisteminin və xidmətlərinin rəqəmsallaşdırılmasının təmin edilməsi |
| | | • Müştəri ehtiyacları əsasında müştəri məmnuniyyəti sorğuları və xidməti təkmilləşdirilməsi<br>• Şöbələrin proses və fəaliyyətlərinin standartlaşdırılması,<br>• Müştərilərlə işləyən işçilər üçün davamlı təlimlər |
| İspaniya | Dövlət Məşğulluq Xidməti (SEPE) | • İspaniyanın Məşğulluq Agentliyinə çevrilmək<br>• Avropa İttifaqı Şurasında İspaniya sədrliyinə çevrilmək |
| | | Bu transformasiyaya insan resurslarının cəlb edilməsi, eləcə də İspaniya Məşğulluq Agentliyinin işini yaxşılaşdırmağa kömək edəcək zəruri rəqəmsal alətlər də daxildir |
| Estoniya | Estoniya İşsizlikdən Sığorta Fondu | • İqtisadiyyatın yavaşlaması davam edərsə, çətinliklərdən biri Məşğulluq Xidmətlərinin iş yükünün artması ola bilər. |
| | | • İnsan kapitalına sərmayə etmək<br>• Xidmətlərimizlə daha geniş auditoriyaya çatmaq üçün aydın, başa düşülən mesajlar<br>• İşəgötürənlərə və əmək qabiliyyəti aşağı olan insanlara yönəlmiş daha məqsədyönlü ünsiyyət |

| | | |
|---|---|---|
| Fransa | Məşğulluq Mərkəzi | • 2019-2022-ci illər üçün strateji planda göstərilən dəyişiklikləri və sağlamlıq böhranından sonra həyata keçirilən dəyişiklikləri birləşdirmək<br>• Xidmət təkliflərini təkmilləşdirmək<br>• İşsizlik sığortası islahatının həyata keçirilməsi və “France Travail”in hazırlanması |
| | | • İşçilərin güclü liderliyi və bağlılığı<br>• Dəyişikliyə açıq olan və bütün səviyyələrdə manevr imkanları ilə dəstəklənən çevik təşkilat<br>• Ən həssas təbəqələrin xidmətində xarici tərəfdaşlar da daxil olmaqla vahid yanaşma |
| Rusiya Federasiyası | Federal Əmək və Məşğulluq Xidməti (ROSTRUD) | • Sanksiyalar<br>• Demoqrafik qocalma<br>• Əmək bazarında balanssızlıq |
| | | • Əmək və məşğulluq sahəsində dövlət proqramlarının hazırlanması<br>• Rusiya əmək bazarındakı vəziyyətin sistematik təhlili<br>• Məşğulluğun rəqəmsallaşdırılması |
| Macarıstan | Milli Məşğulluq Xidməti (NFSZ) | • Avropada mövcud iqtisadi böhranın çağırışlarına cavab vermək<br>• Müharibənin sonu və sülh<br>• Enerjinin formasının dəyişməsi və onun məşğulluğa təsiri |
| | | • Məşğulluq vəziyyətinin sabitləşdirilməsi.<br>• İş və məşğulluq arasında keçidlərin dəstəklənməsi. |

<table>
<tr>
<td rowspan="2">Keniya</td>
<td rowspan="2">Milli Məşğulluq Təşkilatı (NEA)</td>
<td>• Dəyişikliklərə uyğunlaşmaq: Əmək bazarı sürətlə inkişaf edir və pandemiya dəyişiklikləri sürətləndirərək, dövlət məşğulluq xidmətlərinin yeni inkişaf və tendensiyalarla ayaqlaşmasını çətinləşdirib.<br>• Yüksək işsizlik səviyyəsi: COVID-19 pandemiyası yüksək səviyyəli işsizliyə və natamam məşğulluğa səbəb olub, məşğulluq xidməti əməkdaşlarının işaxtaranlar və vakansiyalarla uyğunlaşdırmasını çətinləşdirir.</td>
</tr>
<tr>
<td>• Rəqəmsallaşdırma: işaxtaranlara onlayn iş axtarışı yardımı, virtual karyera bələdçiliyi və rəqəmsal bacarıqların öyrədilməsi kimi effektiv uzaqdan xidmətlər təqdim etmək üçün rəqəmsal platformalar və alətlər<br>• Fərdi dəstək: İş axtaranların xüsusi ehtiyac və şəraitlərinə uyğunlaşdırılmış iş axtarışı, karyera bələdçiliyi və digər dəstək formalarının təmin edilməsi<br>• İşəgötürənin öhdəliyi: İşçi qüvvəsinin ehtiyaclarını daha yaxşı başa düşmək və işaxtaranları müvafiq vakansiyalarla uyğunlaşdırmaq üçün işəgötürənlərlə əlaqələri gücləndirmək<br>• Bacarıqların inkişafı: İşaxtaranlara bugünkü iş bazarında uğur qazanmaq üçün lazım olan bacarıq və keyfiyyətlərə yiyələnmələrinə kömək etmək üçün təlim və təhsil imkanları təmin etmək.<br>• İnklüzivlik: Əlillər, immiqrantlar və aşağı gəlirli insanların ehtiyaclarına cavab verən inklüziv və əlçatan xidmətlərin inkişafı.<br>• Bacarıqların təkmilləşdirilməsi: Fərdlərin yeni bacarıqlar əldə etməsinə və yeni iş tələblərinə uyğunlaşmasına kömək edən təlim və təhsil imkanlarına çıxış təmin etmək.<br>• Əməkdaşlıq: İşaxtaranlara hərtərəfli dəstək vermək üçün təhsil müəssisələri, təlim təminatçıları və qeyri-kommersiya təşkilatları kimi digər təşkilatlarla işləmək.<br>• Çeviklik: Əmək bazarındakı sürətli dəyişikliklər qarşısında çeviklik və cavabdehlik nümayiş etdirmək və xidmətləri müvafiq olaraq uyğunlaşdırıb tənzimləməyi bacarmaq.<br>• Dataya əsaslanan yanaşma: Əmək bazarı tendensiyalarını izləmək və anlamaq, işaxtaranların və işəgötürənlərin dəyişən ehtiyaclarına cavab verən xidmətlərin yaradılması və təqdim edilməsi üçün məlumat və təhlildən istifadə etmək.<br>• Dövlət orqanlarından dəstək: Xidmətləri genişləndirmək və işaxtaranları və işəgötürənləri dəstəkləmək üçün dövlət dəstəyi və maliyyəsindən yararlanmaq.</td>
</tr>
</table>

| | | |
|---|---|---|
| Mali | Milli Məşğulluq Agentliyi | • Müxtəlif böhranların əmək bazarına təsirinin idarə edilməsi<br>• İqlim dəyişikliyi<br>• Ölkənin bir hissəsində təhlükə<br>• Məhdud maliyyə resursları |
| | | • Ərazi işğalı;<br>• Mövcud insan resursları;<br>• Siyasi dəstək |
| Mərakeş | Məşğulluğun və Bacarıqların Təşviqi üzrə Milli Agentlik (ANAPEC) | • ANAPEC üçün əsas problem, son rəsmi rəqəmlərə görə, Mərakeşin təxminən 15%-ni təşkil edən qeyri-rəsmi sektordur. |
| | | • Performansı mükafatlandıran və nəticələrə əsaslanan idarəetməni cəlb etmək<br>• Xidmətlərin idarə edilməsi üçün müasir, şaxələndirilmiş sistem<br>• İnnovativ proqram mühəndisliyi və xidmət təklifləri |
| Mozambik | | • Çoxlu proqramların həyata keçirilməsi və məşğulluq infrastrukturunun genişləndirilməsi üçün dövlət və tərəfdaşlar tərəfindən büdcənin hazırlanması |
| | | • Məşğulluq prioritetlərinin hökumət tərəfindən tanınması<br>• Məşğulluğa investisiyaların və ictimai məşğulluğun təkmilləşdirilməsi |

| | | |
|---|---|---|
| Niderland Krallığı | UWV | • Əmək bazarında çatışmazlıqlar. Regional iş mərkəzlərində tərəfdaşlarla əməkdaşlıq<br>• “Tam xidmətlər” göstərmək üçün məşğulluq qurumunun digər bölmələri ilə əməkdaşlıq. |
| | | • Dəyər əsaslı idarəetmə təlimi<br>• Mövcud sistemlərin dəyişdirilməsi |
| Peru | Milli Məşğulluq Xidməti | • Rəqəmsal xidmətlərin funksiyalarını təkmilləşdirmək və istifadəçi ehtiyaclarına əsasən, xidmət kateqoriyalarına görə təklifin seqmentləşdirilməsini qiymətləndirmək<br>• İnformasiya sistemləri arasında qarşılıqlı əlaqənin təkmilləşdirilməsi<br>• Rəqəmsal əmək vasitəçiliyi xidmətlərindən istifadənin artırılması<br>• Məşğulluq xidməti təchizatçıları şəbəkəsinin genişləndirilməsi<br>• Şəbəkənin təşkili və idarə edilməsi. |
| | | • İKT menecmentində ixtisaslaşma, şəbəkənin böyüməsi və “RENUPSEP” İT həllərinin təhlili və dizaynı üzrə ixtisaslaşmış xidmətlər.<br>• Məşğulluğa aparan yol strategiyasının həyata keçirilməsi<br>• Dövlət məşğulluq xidmətlərini təmin edən milli reyestrinin həyata keçirilməsini davam etdirmək |

| | | |
|---|---|---|
| Portuqaliya | IEFP - Məşğulluq və Peşəkar Təlim İnstitutu | • Çətinliklərdən biri işçilərin işə götürülməsi və işçi qüvvəsi tələblərinin ödənilməsi baxımından işəgötürənlərin tələblərinə daha effektiv cavab vermək olacaq. Bu problemin öhdəsindən gəlmək üçün, xüsusilə, immiqrantların işə qəbulu proseslərini təkmilləşdirmək lazımdır. İnsan resursları kontekstində müəyyən edilmiş məhdudiyyətlər bunlardır: insan resurslarının çatışmazlığı; orta yaş işçilər.<br>• Qarşıda duran vəzifələr: İşçi qüvvəsini cavanlaşdırmaq üçün açıq xarici tenderlər vasitəsilə işçiləri işə götürmək; 60 yaşdan yuxarı yaş qruplarında olan işçiləri pensiyaya keçid etməyə imkan verən fəaliyyətlər vasitəsilə həvəsləndirmək. |
| Portuqaliya | IEFP - Məşğulluq və Peşəkar Təlim İnstitutu | • Peşə təhsilində daha çox və daha yaxşı ərazi tərəfdaşlıqlarının qurulması, əmək bazarında fəaliyyət göstərən qurumlarla əməkdaşlıq; yeni Avropa İttifaqı dəstək çərçivəsində maliyyə mənbələrindən istifadə; innovativ təlim tədbirlərinin yaradılması və ya yenidən müəyyənləşdirilməsi.<br>• İşəgötürənlərlə əlaqələri gücləndirmək və immiqrantların Portuqaliyaya ən çox gəldiyi ölkə ilə mexanizmlər yaratmaq, immiqrantların işə götürülməsi prosesini daha səmərəli etmək. Artıq bir sıra daxili təlim layihələri, o cümlədən 55+ yaş qrupunda olan işçilərin ehtiyaclarını ödəmək üçün nəzərdə tutulmuş maarifləndirmə, təlim, kouçinq və digər tədbirlər həyata keçirilir. |
| Koreya Respublikası | Koreya Respublikasında məşğulluq üzrə məlumat sistemi | • Əsas sual özəl süni intellekt texnologiyasının (chatgpt və s.) bugünkü iş yerlərində məhsuldarlığı artırmaq üçün necə istifadə oluna bilməsidir. |
| Koreya Respublikası | Koreya Respublikasında məşğulluq üzrə məlumat sistemi | • İşçilərin məlumatların idarə edilməsi bacarıqlarını təkmilləşdirmək<br>• Dövlət sektorunda özəl sektorun imkanlarından istifadə etmək<br>• Öz tədqiqat heyətini formalaşdırmaq |

| | | |
|---|---|---|
| Moldova Respublikası | Milli Məşğulluq Agentliyi | • Əmək bazarında tələb və təklifin uyğunlaşdırılması |
| | | • peşə hazırlığı, iş yerində təlim, təcrübəçilər üçün bələdçilik, biznes assosiasiyaları və işəgötürənlər assosiasiyaları ilə əməkdaşlıq |
| Seneqal | Gənclərin Məşğulluğunun Təşviqi üzrə Milli Agentlik (ANPEJ) | • Gənclərin məşğulluğunun idarə edilməsi ekosistemində liderliyin gücləndirilməsi<br>• Layihə və proqramların davamlı maliyyələşdirilməsi üçün resursların daha çox cəlb edilməsi |
| | | • İxtisaslı insan resursları<br>• Xidmətin əhatə dairəsinin genişləndirilməsi<br>• Bacarıqlar yanaşması (elektron təhsil, təlim fəaliyyət planı)<br>• Dövlət dəstəyi |
| Sloveniya | Sloveniya Məşğulluq Xidməti | • Əmək bazarında əsas çatışmazlıqlar<br>• Rəqəmsal xidmətlərin daha da inkişafı<br>• Məşğulluq xidmətində işçilərin sayının azaldılması ilə qarşıya qoyulan hədəflərə nail olmaq |
| | | • Prioritetlərə fokuslanmaq,<br>• Rəqəmsal xidmətlərdən istifadə etmək<br>• Yeni layihələr işləmək<br>• Tərəfdaşlıqları inkişaf etdirmək |

| | | |
|---|---|---|
| İsveç | Məşğulluq Agentliyi | • Uzunmüddətli işsizliklə mübarizə<br>• Bacarıq boşluğu |
| | | • İslahatdan sonra yaxşı uyğunlaşdırılmış təşkilat |
| İsveçrə | SECO-TC | • Ödəniş sisteminin tətbiqi |
| | | • Resursların və rəhbərliyin diqqətinin yuxarıda qeyd olunan layihəyə cəmlənməsi |
| Çad | Milli Məşğulluq Bürosu | • Maliyyə çətinlikləri |
| | | • Texniki və maliyyə tərəfdaşlarına təqdimatlar etmək |
| Tunis | ANETI | • İnformasiya sisteminin qurulması, dematerializasiya, biznes kəşfiyyatı və virtual filialın olması |
| | | • Kommunikasiyanı inkişaf etdirmək |

<table>
<tr><td rowspan="2">Türkiyə</td><td rowspan="2">İŞKUR</td><td>• Ətraf mühit<br>• Qlobal iqtisadi tarazlıq<br>• NEET</td></tr>
<tr><td>• Aktiv əmək bazarı proqramları<br>• Rəqəmsallaşdırılmış xidmət sistemləri<br>• Əməkdaşlıq</td></tr>
<tr><td rowspan="2">Uruqvay</td><td rowspan="2"></td><td>• Özünüməşğulluq perspektivini və proqramlarını gücləndirmək, xidmətləri daha çox rəqəmsallaşdırmaq, fəaliyyətlərin daha yaxşı hədəflənməsini təmin etmək üçün tədqiqat sistemi qurmaq</td></tr>
<tr><td>• Satınalmalar üçün subsidiyalar və stimullar, xidmətlərin göstərilməsi üçün qurumlarla daha yaxşı koordinasiya və müqavilələr, proseslərin daha çox rəqəmsallaşdırılması və avtomatlaşdırılması</td></tr>
</table>

# Nəticələr və ümumi baxış

Sorğuya verilən cavablar əmək bazarında dəyişikliklərin müxtəlif yollarla da olsa, bütün ölkələrdə sürətlənməsini təsdiqləyir.

2020-ci ildə qəfil ortaya çıxan COVID-19 sağlamlıq böhranı bizi iqtisadiyyatlarımıza və cəmiyyətlərimizə təsir edə biləcək hadisələri proqnozlaşdırmaqda **məhdudiyyətlərimiz** barədə xəbərdar etdi.

Biz WAPES olaraq bilirik ki, proqnozlaşdırma qabiliyyətimizi yaxşılaşdırsaq belə, həmişə qeyri-müəyyənlik sahələri olacaq. Əgər dövlət sektoru işçilərinin ortaq bir cəhəti varsa, o da daim artan **qeyri-müəyyənlik mühitində** təsirli olan **mühüm qərarlar** qəbul etmələridir.

Davam edən dəyişikliklər və onların Məşğulluq Xidmətləri üçün yaratdığı problemlər artıq bizə aydın şəkildə məlumdur. Bu sorğu zamanı toplanmış məlumatlar bizə qeyd olunan problemləri aydın şəkildə göstərir: **yaşıl iqtisadiyyatın inkişafı, rəqəmsallaşma** və **demoqrafik problemlər**.

Üzvlərimizin bu sorğuya verdiyi töhfələr göstərir ki, Məşğulluq Xidmətlərinin əksəriyyəti artıq bu məsələlərin hər biri ilə bağlı tədbirlər görür.

# Nəticələr və ümumi baxış

Bununla belə, bir-birini tamamlayan iki məqamı müşahidə etməliyik:

Birinci, rəqəmsallaşma və yaşıl iqtisadiyyatın inkişafı bacarıq çatışmazlığını artırır, yeni riskləri yaradır və əmək bazarına çıxışda bərabərsizlikləri artırır. Demoqrafik təsirlər, dünya əhalisinin qocalmas, gənc işçilərin inteqrasiyası və yaşlı insanların məşğulluqda saxlanmasında təkrarlanan çətinliklər, edilməli olan dəyişikliklərə uyğunlaşmağı çətinləşdirir.

İkinci müşahidə ondan ibarətdir ki, bu təsirlər ayrı-ayrı regionların hüdudlarını aşan “qlobal” və “sistematik” xarakter daşıyır.

Bu, ümumiyyətlə, o deməkdir ki, submilli fəaliyyətlərin həyata keçirilməsi beynəlxalq tədbirlər, əməkdaşlıq və tərəfdaşlıqlar ilə tamamlanmalıdır. Bu, həm də beynəlxalq miqyasda əlaqələndirilmiş həllər tapmaq üçün birgə işləmək mənasına gəlir. Dünya əhalisinin artması, sürətli urbanizasiya, Şimal yarımkürəsinin zəngin iqtisadiyyatlarında əmək qabiliyyətli əhalinin qocalması və gənc işçilərin Cənub yarımkürəsinin iqtisadiyyatlarına inteqrasiyası və onların iqtisadiyyatda yerləşdirilməsinin çətinlikləri eyni reallığın müxtəlif üzləridir. “Cəlbedici” iqtisadiyyatlar qismən işləyən əhalinin qocalması səbəbindən işçi qüvvəsi çatışmazlığı ilə üzləşdikdə az-çox müntəzəm miqrasiya axını yaradır.

# Nəticələr və ümumi baxış

Bir çox ölkələr tərəfindən artıq müəyyən edilmiş nəticələrdən biri də odur ki, miqrantların inkişafı üçün zəruri olan bacarıqlar müvəqqəti və ya daimi olaraq yoxdur və bu ölkələr öz ehtiyaclarını ödəmək üçün təhsilə və peşə təhsilinə yenidən investisiya qoymağa məcburdur.

Qlobal istiləşmə, qıtlıq, yoxsulluq və onların gətirib çıxardığı silahlı münaqişələr də əhalinin miqrasiya axınına səbəb olur, həm göndərən, həm də qəbul edən ölkələrə daha da mürəkkəblik qatır. Ona görə də Məşğulluq Xidmətlərinin birgə işləməkdən başqa çarəsi yoxdur.

Beləliklə, biz təcrübə mübadiləsi və beyin fırtınası üçün səylərimizi davam etdirməliyik, Məşğulluq Xidmətlərinin gələcəkdə üzləşə biləcəyi problemlərə dair daha qlobal, sistemli baxışı birgə yaratmalıyıq.

WAPES kimi beynəlxalq şəbəkənin üstünlüyü ondan ibarətdir ki, biz reallıqlarımızı və yanaşmalarımızı fərqli və bir-birini tamamlayan perspektivlərdən təsvir edə, paylaşa və müqayisə edə bilərik.